RESPUBLİKA 30 dekabr 2019-cu il S.7.

# Ulu öndərin əbədiyaşar xatirəsinə dəyərli töhfə




HEYDƏR ƏLİYEV — dünyada elə bir məmləkət olmaz ki, orada bu adı, bu böyük ünvanı tanımamış olsunlar.

Böyük türk dünyasına, keçmiş sovetlər məkanına gəldikdə isə, bu ad hər kəsə əziz və həm də doğmadır.

Həyatda millət, xalq, torpaq da öz layiqli yetirmələri ilə tanınır.

Ötən əsrin 60-cı illərin sonlarında hakimiyyətə gələn və hakimiyyətdə olduğu 13 il ərzində Azərbaycanın şöhrətini dünya arenasına çıxarmağı bacaran, Azərbaycan iqtisadiyyatı, ölkə vətəndaşlarının maddi-rifah halını yüksəldə bilən məhz Heydər Əliyev olmuşdur.

Ötən əsrin 80-ci illərinin axırları, 90-cı illərinin əvvəllərində SSRİ tərkibinə daxil olan 15 respublika kimi, Azərbaycan da öz müstəqilliyini elan edən zaman düşdüyü siyasi və iqtisadi çətinliklərin üzərinə Ermənistan-Dağlıq Qarabağ məlum problemləri də gələndə ölkədə hərc-mərcilik baş alıb gedəndə, ölkə başsız başçıların fəaliyyətsizliyi sayəsində vətəndaş müharibəsi ərəfəsində olanda, xalqın çağırışı ilə yenə imdada gələn—ölkə rəhbərliyini bir ağır yük kimi çiyninə götürərək, tezliklə ictimai-siyasi stabillik yaradan, Qarabağ cəbhəsində atəşkəsə nail olan, Azərbaycanın adını qısa zaman kəsiyində dünya dövlətləri sırasına yaza bilən də elə ulu öndər oldu...

Tanınmış Azərbaycan şairi Əli Vəkilin “Əbədiyaşar dahi” adlandırdığı poeması ulu öndərin doğulduğu gündən, dünyasını dəyişdiyi günədək olan dövrü əhatə edir.

Poema 24 bölmədən: - “İlin gözəl çağında”, “Ağıllı seçim”, “Acı xəbər”, “Tarixi bəyanat”, “Amandı”, “Son çıxış”, “Ən müqəddəs yer”, “Gözlədi”, “Anım yeri”, “Əl saxlayın”, “İlin adamı”, “Heykəlləşdi özü də”, “Ziyarətgah”, “Bağışla məni”, “Heydər Əliyevlə vidalaşma”, “Klivlenddə”, “İlahi məhəbbət”, “Əbədi”, “Səndə”, “Unutmarıq biz”, “Millətin”, “Mərd atanın mərd oğlu”, “Rəsmi qarşılanma” və “Bu sarayı bir zaman tikdiribdir o dahi”- ibarətdir.

Bildiyimiz kimi, çoxsaylı kitablar-əsərlər müəllifi olan Əli Vəkil uzun müddət Bakıda “Ədəbi İrəvan” nəşrinə rəhbərlik etməklə yanaşı, bu nəşri öz hesabına reallaşdıraraq ədəbi ictimaiyyətə təqdim erməkdən qürur duymuşdur.

Hazırda ahıl yaşlarında olan tanınmış şairimiz yenə də yaradıcılığını davam etdirməklə, ulu öndərimizin qarşıdan gələn 97 illik yubileyinə (2020) ərməğan olaraq “Əbədiyaşar dahi” adlı möhtəşəm bir poemanı yazaraq Heydər Əliyev şəxsiyyətinə öz hörmət və ehtiramını, tükənməz sevgisini bildirməyə çalışmışdır.

Heydər Əliyev ötən əsrin 90-cı illərində ölkə əhalisinin böyük əksəriyyətinin maddi-rifah halının son dərəcə gərgin olduğu bir zamanda, uçurumun kənarında olan, iqtisadi cəhətdən çox zəifləmiş Azərbaycana, xalqın təkidli çağırışı ilə ikinci dəfə hakimiyyətə gələrək, kiçik zaman kəsiyində bir çox problemlərin həllinə nail olmaqla yanaşı, perspektivli layihələrə də imza ata bildi.

*Gəldi, bu millətin ər oğlu, gəldi,*
*Gəmini çıxardı fırtınalardan.*
*Elin havadarı, nər oğlu gəldi,*
*Qəddini düzəltdi Can Azərbaycan...*

...Ölkəni qorudu təhlükələrdən, “Heydər ata”, “Heydər baba” deyirlər.

*Can verən ölkəni qaldırdı yerdən,*
*Ömrü sığmaz hər kitaba, deyirlər...*

Əli Vəkilin dediyi kimi, Azərbaycan dövləti, onun dövlətçiliyi, ərazi bütövlüyü, millətin taleyi, ölkənin siyasi və iqdisadi durumu, perspektiv məsələləri doğrudan da, səriştəli əllərdədi. Və böyük əminliklə demək olar ki, öndə gələn illərdə Azərbaycanın gələcəyi daha da ürəkaçan, gözoxşayan, xalqın maddi-rifah halı isə daha da qənaətbəxş olacaqdır. Əli Vəkilin “Əbədiyaşar dahi” poeması Heydər Əliyevin—ulu öndərimizin əbədiyaşar xatirəsinə dəyərli töhfədir. Əli Vəkilin bu dəyərli və aktual əsərinin Azərbaycan ədəbi ictimaiyyəti tərəfindən dəyərincə qarşılanacağına və qiymətləndiriləcəyinə inanıram.

**Fəxrəddin MEYDANLI.**